Sərginin açılışında çıxış edən təhsil naziri Misir Mərdanov öncə qonaqları salamlayıb və bildirib ki, sərginin keçirilməsində əsas məqsəd Koreyanın qabaqcıl universitetlərini Azərbaycanda tanıtdırmaq, iki ölkənin təhsil sahəsindəki əlaqələrini inkişaf etdirməkdir. Təhsil naziri son illər Koreya ilə Azərbaycan arasında təhsil sahəsində qurulan əməkdaşlıqdan, azərbaycanlı tələbələrin Koreya universitetlərində təhsil almasından, habelə müvafiq sahədə atılan addımlardan söz açıb. Nazir qeyd edib ki, sərgi Koreyada təhsil almaq arzusunda olan azərbaycanlı gənclər üçün əlverişli imkan yaradacaq.

Misir Mərdanov sərginin təşkilində əməyi olan şəxslərə təşəkkürünü bildirib və bu tədbirin iki ölkənin təhsil sahəsi üzrə əlaqələrinin genişləndirilməsində müsbət rol oynayacağına inamını ifadə edib.

Tədbirdə Koreya Respublikasının ölkəmizdəki səfiri Lyu Kvanq Çul çıxış edərək, iki ölkə arasındakı əlaqələri xüsusi qeyd edib, eləcə də sərginin keçirilməsini yüksək dəyərləndirib.

Məlumat üçün bildirək ki, Koreyanın 13 ali təhsil müəssisəsinin iştirak etdiyi sərgidə müvafiq ölkənin təhsil sisteminə və burada fəaliyyət göstərən universitetlərə dair ətraflı məlumat verilib.